# BMT-nin missiyası ermənі yalanlarını ifşa etdi

Oktyabrın 1-də erməni sakinlərin humanitar ehtiyaclarını müəyyənləşdirmək üçün Qarabağa gələn BMT-nin müşahidə missiyası bəyanat yayıb.



Bəyanatda qeyd edilib ki, ermənilər yaşayan ərazilərdə mülki və ictimai infrastruktura heç bir ziyan dəyməyib, dinc əhaliyə qarşı zorakılıq halları qeydə alınmayıb və ermənilər şəhəri könüllü olaraq tərk edirlər. BMT missiyasının Xankəndiyə baş çəkərək faktlarla yerində tanış olması və obyektiv bəyanat verməsi saxta erməni iddialarını ifşa edir.

Milli Məclisin deputatı Tural Gəncəliyev qeyd edib ki, Ermənistan və havadarları bütün dünyaya guya Azərbaycanın Qarabağda etnik təmizləmə aparmasını və əraziyə heç bir beynəlxalq təşkilatı buraxmamasını car çəksələr də, istədiklərinə nail ola bilmirlər: "Bütün dövlətlərin birləşdiyi qlobal qurum olan BMT-nin missiyasının Xankəndiyə və Qarabağın digər ərazilərinə baş çəkməsi və öz hesabatında qeyd etdiyi faktlar bir daha göstərdi ki, ermənilərin iddiası tamamilə əsassızdır. Missiyanın hesabatında bildirilir ki, Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərin öz evlərini məcburi şəkildə tərk etmələri ilə bağlı heç bir fakt, heç bir hal qeydə alınmayıb. Ermənilər Xankəndini könüllü olaraq tərk edirlər. Azərbaycan dövlətinin onların təhlükəsizliyinin və hüquqlarının qorunmasına zəmanət verməsinə baxmayaraq, onlar bu addımı atırlar".

Deputatın sözlərinə görə, hesabatda Xankəndidə mülki tibbi və sosial xidmətlərin fəaliyyət göstərdiyi, eləcə də Qarabağda həyatın funksional olması üçün fəaliyyət göstərən əsas infrastruktur obyektlərinin heç bir zərər çəkməməsi, orada gündəlik işlərin davam etdirilməsi qeyd olunub. Bildirilib ki, həmin ərazidə kənd təsərrüfatı infrastrukturuna da heç bir zərər vurulmayıb. Hesabatda Xankəndidə yaşayan ermənilərin öz yerlərini könüllü tərk etmələri də vurğulanıb. Bütün bunlar ermənilərin yalanlarını ifşa etmək üçün vacib məqamlardır. BMT-nin müşahidə missiyasının müvafiq hesabatı erməni sevdalılarına dərs olmalıdır.

"Xüsusi vurğulamaq lazımdır ki, Ermənistan Azərbaycan torpaqlarını işğalda saxladığı 30 il ərzində həmin ərazilərə hansısa missiyanın buraxılmasına imkan verməyib. Çünki Ermənistan həmin dövrdə bizim tarixi torpaqlarımızda dağıdıcılıq fəaliyyəti ilə məşğul olub. Nəhayət, Azərbaycanın 23 saatlıq antiterror tədbirlərindən sonra vəziyyət dəyişib. Heç iki həftə keçmədi ki, BMT missiyası həmin ərazilərdə müşahidə apardı. Dövlətimiz bu addımları ilə bütün dünyaya humanizm və diplomatiya nümunəsi göstərir. Azərbaycan həm də sübuta yetirir ki, beynəlxalq prinsiplərinə hörmət etməklə yanaşı, onun gizlədəsi heç bir xoşagəlməz əməli yoxdur", - deyə deputat bildirib.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 4 oktyabr.- S.7.